Azərbaycan Respublikası Hesablama Palatası Kollegiyasının 17 aprel 2009-cu il tarixli Q-30 nömrəli qərarı ilə təsdiq edilmişdir.

# Hesablama Palatasının illik fəaliyyəti barədə hesabatın hazırlanması, baxılması və təsdiq olunması Q A Y D A L A R I

## I. Ümumi müddəalar

1.1. "Hesablama Palatasının illik fəaliyyəti barədə hesabatın hazırlanması, baxılması və təsdiq olunması Qaydaları" (bundan sonra Qaydalar) "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının 2002-ci il 05 mart tarixli 269-II Q saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi"nin, digər qanunvericilik aktlarının və Azərbaycan Respublikası Hesablama Palatasının (bundan sonra Palata) normativ-metodiki sənədlərinin tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Hesablama Palatasının illik fəaliyyəti barədə hesabatın (bundan sonra Hesabat) strukturu və məzmunu, onun hazırlanması və rəsmiləşdirilməsi zamanı Palatanın struktur bölmələri tərəfindən həyata keçirilən tədbirlər və istifadə edilən məlumatlar üzrə ümumi tələbləri müəyyən edir. Qaydaların əsas məqsədi Hesabatın hazırlanmasında istifadə edilən prosedur və yanaşmalarda vahid metodologiyanın tətbiqini təmin etməkdir.

## II. Hesabatın strukturu

2.1. Palatanın fəaliyyət istiqamətlərini, hesabat ilində müəyyən edilmiş prioritet vəzifə və funksiyaları, qüvvədə olan qanunvericilik aktları və təsdiq edilmiş İş planı üzrə əldə olunmuş nəticələri əhatə etmək üçün Hesabatda digər bölmə və paraqraflarla yanaşı aşağıdakı bölmələrin olması zəruri şərtdir:

2.1.1. Ümumi məlumatlar;
2.1.2. Hesablama Palatasının ekspert-analitik fəaliyyəti;
2.1.3. Hesablama Palatasının maliyyə-büdcə nəzarəti tədbirləri;
2.1.4. Hesablama Palatasının fəaliyyətinin təşkili.

2.2. Hesabatın "Ümumi məlumatlar" və "Hesablama Palatasının fəaliyyətinin təşkili" bölmələri Palatanın üzvləri və aidiyyəti struktur bölmələri, "Hesablama Palatasının ekspert-analitik fəaliyyəti" və "Hesablama Palatasının maliyyə-büdcə

nəzarəti tədbirləri" bölmələri isə aidiyyəti Auditorlar və struktur bölmələri tərəfindən hazırlanır.

## III. Hesabatın hazırlanması üçün istifadə olunan məlumat mənbələri

3.1. Hesabatın hazırlanması zamanı aşağıdakı mənbələrdən istifadə olunur:

- dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə dair Palatanın rəyləri;
- dövlət büdcəsinin icrası barədə illik hesabata və müvafiq qanun layihəsinə dair Palatanın rəyi;
- Palatanın həyata keçirdiyi audit tədbirlərinin nəticələri;
- Palatanın həyata keçirdiyi monitorinqlərin və analitik təhlil işlərinin nəticələri;
- Palata tərəfindən aparılan ekspert-analitik fəaliyyətin nəticələri;
- dövlət büdcəsinin icrası barədə illik hesabat;
- dövlət büdcəsinin gəlir və xərclərinin icrasına dair Azərbaycan Respublikası Maliyyə və Vergilər Nazirliklərinin, Dövlət Gömrük Komitəsinin məlumatları;
- Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatları və digər rəsmi məlumatlar;
- dövlət büdcəsi vəsaitlərindən istifadə edən dövlət idarələrinin, müəssisələrinin, təşkilatlarının və digər orqanların rəsmi məlumatları;
- dövlət vergi və rüsumlarının ödəyiciləri olan idarə, müəssisə və təşkilatların rəsmi məlumatları;
- "Büdcə sistemi haqqında", "Dövlət satınalmaları haqqında", "Dövlət borcu haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunları, hər il üçün qəbul edilmiş dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikasının Vergi, Gömrük və Mülkü Məcəllələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə təsdiq edilmiş müvafiq layihələrin maliyyələşdirilməsi üzrə kredit sazişləri, Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşması üçün əsas olan və dövlət büdcəsinin xərclərini tənzimləyən digər normativ-hüquqi aktlar.

## IV. Hesabatın məzmunu və hazırlanması prosedurları

4.1. Hesabatın "Ümumi məlumatlar" bölməsində Palatanın fəaliyyətini bütövlükdə xarakterizə edən, fəaliyyətin prioritetlərini və hesabat ilində Palata tərəfindən əldə edilən nəticələri əks etdirən məlumatlar göstərilir. Bu bölmədə əsas diqqət aşağıdakı məsələlərin əhatə olunmasına yönəldilir:

- Palatanın vəzifələri;
- Palatanın fəaliyyət növləri, həyata keçirdiyi maliyyə nəzarətinin forma və metodları;
- hesabat ilində Palatanın fəaliyyətinin əsas prioritetləri;
- hesabat ilində Palatanın fəaliyyətinin əsas nəticələri.

4.2. “Hesablama Palatasının ekspert-analitik fəaliyyəti” bölməsində Palatanın dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə dair rəylərinin, dövlət büdcəsinin icrası barədə illik hesabata və müvafiq qanun layihələrinə dair rəyinin, dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələri haqqında Azərbaycan Respublikası qanununa dəyişikliklər edilməsi barədə qanun layihələrinə rəylərinin əsas müddəaları, mövcud qanunvericilik aktlarının, normativ-metodiki sənədlərin və büdcənin strukturunun təkmilləşdirilməsi, büdcənin səmərəsiz xərclərdən təmizlənməsi, dövlət büdcəsinin əsas parametrlərinin ölkədə mövcud olan makroiqtisadi səraitin tələblərinə uyğunluğunun müəyyənləşdirilməsi və s. barədə Palatanın təklifləri və bütövlükdə büdcələrin tərtibi və icrasında əsas prioritetlərin, meyarların, yanaşmaların və qiymətləndirmələrin qısa xülasəsi, maliyyə-büdcə sahəsinə aid olan qanun layihələrinin, kredit sazişlərinin və beynəlxalq müqavilələrin Palata tərəfindən ekspertizası üzrə məlumatlar əks etdirilir.

4.3. “Hesablama Palatasının maliyyə-büdcə nəzarəti tədbirləri” bölməsində Palata tərəfindən dövlət büdcəsinin gəlirləri və xərcləri sahəsində həyata keçirilən audit tədbirlərinin, analitik təhlil işlərinin və keçirilmiş monitorinqlərin nəticələri əks etdirilməklə əsas diqqət aşağıdakıların əhatə olunmasına yönəldilir:

- nəzarət tədbirlərinin xarakteristikası;
- nəzarət tədbirlərinin nəticələri üzrə əsas qiymətləndirmələr;
- nəzarət tədbirləri üzrə büdcə vəsaitlərindən istifadə zamanı yol verilmiş maliyyə pozuntuları barədə ümumiləşdirilmiş məlumatlar;
- aşkar edilmiş kənarlaşmaların və maliyyə pozuntularının aradan qaldırılması məqsədilə dövlət büdcəsinə bərpa edilən məbləğlər barədə məlumatlar;
- Palata tərəfindən qəbul edilmiş qərarlar və onların nəticələri üzrə görülmüş tədbirlər;
- nəzarət tədbirlərinin nəticələrinə dair qəbul edilmiş Kollegiya qərarları üzrə aidiyyəti qurumlar tərəfindən görülmüş tədbirlər;
- həyata keçirilmiş digər tədbirlər.

4.4. “Hesablama Palatasının fəaliyyətinin təşkili” bölməsində fəaliyyətin ümumi məsələləri, o cümlədən fəaliyyət istiqamətləri üzrə təsdiq edilmiş İş planı, metodiki təminat, beynəlxalq fəaliyyət, Palatanın fəaliyyətində aşkarlığın təmin olunması, informasiya texnologiyalarının tətbiqi, Palataya daxil olmuş təklif, ərizə və şikayətlərə baxılması, Palatanın fəaliyyətinin maliyyə-təsərrüfat təminatı barədə məlumatlar əks etdirilir.

4.5. Hesabatda Palata tərəfindən İş planında nəzərdə tutulan və icrası başa çatdırılan, habelə Palatanın Kollegiyası tərəfindən müzakirə edilərək təsdiq olunmuş tədbirlər əsas götürülür. Hesabatda audit tədbirlərinin, monitorinq və analitik təhlil işlərinin nəticələri altbölmələr şəklində ayrı-ayrılıqda əks etdirilir.

4.6. Palatanın İş planında nəzərdə tutulan, lakin icrası təmin olunmayan tədbirlərin həyata keçirilməməsinin səbəbləri barədə Hesabatda müvafiq məlumatlar qeyd edilir.

4.7. Həyata keçirilmiş maliyyə-büdcə nəzarəti tədbirləri hesabatda aşağıdakı ardıcıllıqla göstərilir:

4.7.1. Dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin tərtibi və icrası üzrə:

- dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin tərtibi və icrası zamanı audit və ya ekspert-analitik təhlil formasında həyata keçirilmiş maliyyə-büdcə nəzarəti tədbirləri;
- maliyyə-büdcə ekspertizası.

4.7.2. Azərbaycan Respublikası Prezidentinin tapşırığı, Azərbaycan Respublikası Milli Məclisinin, onun daimi komissiyalarının sorğu və təklifləri və bələdiyyələrə inzibati nəzarəti həyata keçirən orqanın sorğusu əsasında nəzarət tədbirləri aparıldıqda onun nəticələri altbölmə formasında hesabatda ayrıca göstərilir.

4.7.3. Audit keçirilən obyektlərin sayı müəyyənləşdirilərkən hesabat ilində audit başa çatdırılmış və onun nəticəsi qismində müvafiq qaydada akt tərtib edilmiş qurumların sayı əsas götürülür. Hesabat ilində bir obyektdə bir neçə nəzarət tədbiri həyata keçirildikdə həmin obyekt siyahıda yalnız bir dəfə nəzərə alınır.

4.7.4. Hesabata yalnız iş planına daxil edilmiş və hesabat ilində keçirilmiş nəzarət tədbirlərinin nəticələri və hesabatın tərtibinədək bu nəticələr üzrə aidiyyəti qurumlar tərəfindən görülmüş tədbirlər barədə məlumatlar əks etdirilir.

4.7.5. Əvvəlki illərdə başa çatdırılmış nəzarət tədbirləri üzrə aidiyyəti qurumlar tərəfindən hesabat ilində və hesabatın tərtibinədək görülmüş tədbirlər barədə məlumatlar Hesabatın maliyyə-büdcə nəzarəti tədbirləri bölməsinin sonunda müvafiq qaydada göstərilir.

4.7.6. Nəzarət tədbirləri üzrə yalnız təsdiq edilmiş Kollegiya qərarında göstərilən maliyyə pozuntuları barədə məlumatlar Hesabatda nəzərə alınır.

## V. Hesabatın tərtibi, baxılması və təsdiq olunması

5.1. Palata üzrə yekun Hesabat növbəti ilin may ayınadək tərtib edilir.

5.2. Hesabatın tərtibi zamanı Palata tərəfindən təsdiq olunmuş müvafiq qaydalarda müəyyən edilmiş şərtlərin tələblərinə riayət olunur.

5.3. Hesabatda dövlətə dəyən zərərlər və büdcəyə bərpa edilən məbləğlər, səmərəsiz xərclər və digər maliyyə pozuntularının məbləğləri natural ifadələrlə yanaşı mümkün hallarda manatla göstərilir.

5.4. Naxçıvan Muxtar Respublikasının büdcəsi üzrə Palatanın Iş planında təsdiq edilmiş nəzarət tədbirlərinin hesabat ilindəki nəticələrinə dair Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin hesabatı Palatanın Hesabatına müvafiq qaydada əlavə edilir.

5.5. Palatanın fəaliyyət istiqamətləri üzrə hesabatların layihəsi aidiyyəti Palata üzvləri və struktur bölmələri tərəfindən hazırlanır. Hesabat layihəsi müvafiq struktur bölmənin rəhbəri tərəfindən imzalanır və aidiyyəti Palata üzvü tərəfindən növbəti ilin aprel ayının 10-dək Təhriri məruzə ilə müəyyən olunmuş qaydada Palatanın Sədrinə təqdim olunur.

5.6. Palatanın Sədrinin verdiyi müvafiq göstərişə əsasən hesabat layihələri icmallaşdırılmaq üçün aidiyyəti struktur bölməsinə verilir. Həmin struktur bölmə tərəfindən daxil olmuş hesabat layihələri 10 iş günü müddətində (son layihə daxil olduqdan sonra) Sədr müavininin rəhbərliyi ilə icmallaşdırılır və Palata üzrə yekun hesabatın layihəsi hazırlanır. İcmallaşdırılmış yekun hesabatın layihəsi Təhriri məruzə ilə müvafiq qaydada Palatanın Sədrinə təqdim edilir.

5.7. Palata üzrə yekun hesabatın layihəsi Palatanın Sədri tərəfindən müvafiq qaydada baxılmaq üçün Kollegiya iclasına təqdim edilir.

5.8. Hesabatın layihəsi Palatanın Kollegiya iclası tərəfindən təsdiq olunduqdan sonra Hesabat Palatanın Sədri tərəfindən imzalanır və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci və Azərbaycan Respublikasının 2002-ci il 05 mart tarixli 269-II Q saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi"nin 25.3-cü maddəsinin tələblərinə uyğun olaraq müvafiq qaydada Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunur.

## VI. Məsuliyyət

6.1. Palatanın bütün vəzifəli şəxsləri və işçiləri bu Qaydaların tələblərinin vaxtında və keyfiyyətlə icra olunmasına müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq məsuliyyət daşıyırlar.